**UOT 070 (4/9)**

# AZƏRBAYCANIN MEDİA MÜHİTİNDƏ MÜSAHİBƏ VƏ ONUN YENİ FORMATLARI

**G.S.MAHMUDOVA**
***Bakı Dövlət Universiteti***
***guney_mahmudova@rambler.ru***

*Məqalədə müasir Azərbaycanın KİV sistemində - xüsusi olaraq mətbuatda müsahibə janrının işləklik xüsusiyyətlərinin səbəbləri araşdırılır. Belə bir cəhətə ayrıca diqqət yetirilir ki, müasir mətbuatda müsahibənin yeni formatları meydana gəlməkdədir. Bir sıra qəzetlərin – xüsusilə "525-ci qəzet", " Kaspi", "Ekspress" və s. qəzetlərin son illərdəki fəaliyyətində yeni formatlı, yeni tipli müsahibələr yer almaqdadır. Məqalədə Elçin Əfəndiyevin, Misir Mərdanovun, Səlahəddin Xəlilovun və digərlərinin bir qəzetin dalbadal bir neçə nömrəsində dərc olunan geniş formatlı müsahibələri təhlilə cəlb edilmişdir. Göstərilən illüstrativ materiallar fonunda bu tipli müsahibələrin xarakterik xüsusiyyətləri – tematikası, peşəkarlıq səviyyəsi dil və uslubu barədə təhlillər aparılır. Məqalədə müsahibdən daha çox müsahibə aparan jurnalistin peşəkarlıq xüsusiyyətləri açılır.*

**Açar sözlər:** media, müsahibə, müşahidə, janr, yeni format

Jurnalistika janrları sistemində müsahibə ayrıca əhəmiyyətə malikdir. Jurnalistikada analitik janrların bir çoxunun digər ədəbi janrlarla, xüsusilə bədii janrlarla bəzi müştərəkliliyi nəzərə çarpsa da, müsahibə birbaşa media faktına bağlıdır və xüsusilə son illərdə böyük reytinq qazanmışdır.

Müsahibə bir çox cəhətdən kütləvi informasiya vasitələrinin gündəmində əhəmiyyətli yer tutur. Əlbəttə, ilk növbədə müsahibə oxucu, tamaşaçı, dinləyici üçün çox maraqlı, dəyərli informasiya mənbəyidir. Oxucu, ya tamaşaçı yaxşı bilir ki, jurnalist hər hansı bir faktla bağlı kimisə müsahibəyə cəlb edibsə, deməli həmin şəxs həmin faktla bağlı səriştəli adamdır və onun bilgiləri mütləq maraq doğuracaq. Deməli, müsahibəyə cəlb olunan şəxs həm ekspert kimi, həm də hadisəyə bələd adam, bəzən də hadisənin iştirakçısı kimi vacib informasiya personajıdır. Digər tərəfdən, müsahibə çevik janrdır, peşəkar jurnalist hadisənin başvermə anından dərhal sonra həmin hadisəyə bu və ya digər cəhətdən bağlı olan bir insanı operativ şəkildə müsahibəyə cəlb edir. Hətta, jurnalistlərin informasiya mənbəyindən birbaşa məlumat almasının hüquqi cəhəti «Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikasının Qanu-

nunda öz təsbitini tapmışdır. «Kütləvi informasiya vasitələri cəmiyyətdəki iqtisadi, siyasi, ictimai və sosial durum haqqında, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilartların, ictimai birliklərin, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə operativ və doğru-dürüst məlumatlar almaq hüququna malikdirlər» [3]. Qanunda daha sonra göstərilir ki, «dövlət orqanları, bələdiyyələr, idarə, müəssisə və təşkilatlar, ictimai birliklər, siyasi partiyalar, vəzifəli şəxslər öz fəaliyyətləri haqda məlumatı kütləvi informasiya vasitəsinin sorğusu əsasında…..yaxud başqa formalarda verirlər» [3].

Əlbəttə, burada sorğu və digər formalar cərgəsində müsahibə ilkin yerdə durur. Buradan belə bir nəticə çıxır ki, yuxarıda göstərilən obyektlərin hamısı əsas informasiya mənbələridir və bu obyektlərin heç birinin jurnalist sorğusuna, o cümlədən müsahibə verməkdən imtina etmək hüququ yoxdur.

Məsələnin əsas tərəflərindən biri, yəni müsahibəni maraqlı edən cəhətlərdən biri buradakı informasiya mənbəyinin jurnalist tərəfindən peşəkarlıqla seçilməsi və onun müsahibəyə cəlb edilmə bacarığıdır. Yəni bəzi müstəsna hallarda jurnalist informasiyaya dəxli olan elə adamları seçməli olur ki, onlar müsahibə verməyə yuridik cəhətdən cavabdeh deyillər. Məsələn, Azərbaycanın xalq yazıçısı Əkrəm Əylisli Moskvada nəşr olunan «Дружба народов» ədəbi-bədii jurnalında «Daş yuxular» adlı bir roman dərc etdirdi. Roman Azərbaycanda birmənalı şəkildə yazıçının öz xalqını təhqir etməsi, Ermənis-tanın Azərbaycana torpaq iddialarına bəraət qazandırması, azərbaycanlını vəhşi və qaniçən xarakterli insan kimi təqdim etməsi və s. digər saxta faktlar ətrafında qurulduğu ilə bağlı geniş müzakirələrə səbəb oldu. Xalqa qarşı böyük cinayət etdiyini və bunun geniş dairələrdə sərt təpki ilə qarşılandığını görən Ə.Əylisli, təbii ki, heç bir jurnalistə müsahibə vermək istəmirdi. Belə bir məqamda – qalmaqalın ən qızğın vaxtında ANS TV və onun ustad jurnalisti Mirşahin Ə.Əylislini geniş müsahibəyə cəlb edə bilir. Bu jurnalist peşəkarlığının göstəricisidir. Məlum olduğu kimi, Ə.Əylisli etdiyi cinayətə olan xalq, ictimai təpkilərə görə jurnalistlərin qarşısına çıxmaqdan çəkinirdi. Belə bir məqamda jurnalistin onu müsahibəyə cəlb edə bilməsi teletamaşaçıya xeyli yeni informasiya verdi.

Janrın nəzəri məsələlərinə diqqət etsək, görəcəyik ki, «müsahibə jurnalistin əsəridir. Jurnalist çox zaman müsahibə ilə öz ideyasını gerçək-ləşdirir. İnformasiya texnologiyaları hansı yöndə dəyişir dəyişsin, müsahibə hər zaman bir janr kimi aktual olaraq qalacaq» [4, 352]. Çünki «müsahibə jurnalistikada informasiya almağın ən yayılmış metodudur» [10, 88]. Mütəxəssislərin fikrincə, janrın «aktiv istifadəsi iki əsas faktorla şərtlənir: Birincisi, onun köməyilə öyrənmək istədiyin predmetin ən dərin nöqtələrinə daxil olmaq mümkünlüyü, ikincisi, informasiya almağın asan yolu olması ilə (sual ver, cavab al – bundan sadə nə ola bilər ki?) işlək janra çevrilir» [10, 88].

Müsahibə janrını xarakterizə edən əsərlərdən birində deyildiyi kimi, “Müsahibə məqsədlə aparılan söhbətdir” [11].

Bu nəzəri fikrin birinci tərəfi elmidir, qəbul ediləndir, lakin məsələnin

ikinci tərəfi ilə heç cür razılaşmaq olmaz. Məşhur rus janr nəzəriyyəçisi A.A.Tertiçnının müsahibədə sual verib, cavab almağı çox asan bir metod hesab etməsilə heç cür razılaşmaq olmaz. Müsahibənin elə predmeti və elə respondenti var ki, burada həm predmetin, həm də ekspertin xarakteri jurnalistdən məsələyə çox böyük bələdlilik və bu sahədə geniş informasiyalılıq tələb edir. Fikrimizi sübut etmək üçün «525-ci qəzet»in 2012-ci ildə nə az, nə çox, düz on nömrəsində jurnalist Yaşar Əliyevin Elçinlə geniş müsahibəsini misal gətirmək olar.

Beləliklə, iddiasız və sakit bir ahəng ifadə edən "Elçinlə ədəbiyyat söhbəti» adlanan bu müsahibə öz sərlövhəsi ilə oxucunu necə cəlb etdi? Əlbəttə, hər şeydən əvvəl, bu müsahibənin mövzusu, tematikası ilə. Digər tərəfdən, Yaşarın müsahibi, həmsöhbəti olan yazıçı Elçin səriştəli oxucuya öz orijinal fikirləri, sənətkar keyfiyyəti ilə çoxdan məlumdur.

Belə bir həqiqəti deməli oluruq ki, sənət haqqında söhbətin sənətkarla aparılması oxucuya çox şey vəd edir. Xüsusilə burada sənətkarın sənətə münasibəti, bu münasibətin obyektivliyi, bu obyektivliyin səmimiliyi, sənətkarın şəxsiyyətini müəyyən edən meyarlara oxucunun əvvəlcədən az-çox bələdliliyi çox böyük məna daşıyır. "Azərbaycan elmi-filoloji, ədəbi-bədii-ictimai dairəsi Elçinin yaradıcılıq istedadına, zəngin mütaliəsinə və bu mütaliədən gələn təfəkkürünə, yazıçı şəxsiyyətinə və bədii sözə, nəzəri qiymətinə çoxdan bələddir. Dünyanı fantastik bir xaosun bürüdüyü səksəninci illərin sonu-doxsanıncı illərin əvvəllərində mətbuat və söz azadlığının yaratdığı fantasmoqorik bir zamanda bəşəriyyəti min illərdən bəri kamilləşdirə-kamilləşdirə gələn bədii söz sənətinin öləzimə çağından ta bu günə qədər Elçin təkcə Azərbaycan elmi-filoloji fikrində deyil, cəsarətlə demək olar ki, bundan çox-çox böyük bir mühitdə ədəbiyyata sahib çıxan, onun xəstə yatağının başında vicdanlı bir həkim-kardioloq kimi dayanan azsaylı filoloq-alimlərdən biridir" [5]. Dostoyevskidən, Rasputindən imtina edən rus oxucusu, Markesdən, Kortasardan, Kobo Abedən… imtina edən dünya oxucusu hər kəsi ruhdan salmışdı, təkcə bizdə deyil, bütün dünyada hər şeyi öz qərəzli baxış bucağından, «qiymətləndirən»lər qarşısında bədii sözə sahib çıxmaq, onun dəyərinin heç vaxt itməyəcəyinə inam bəsləmək də hər kəsin işi deyildi. Elçin özünün ən yeni bədii əsərləri ilə, bədii sənət barədə inadkar nəzəri fikir və mülahizələri ilə öz inamına bizi də inandırdı. Artıq inadkarlıqla inandırmaq cəhdi geridə qaldı. İndi dünya ədəbiyyatında, eləcə də Azərbaycan ədəbiyyatında rekviyem dövrü bitməkdə, yeni qüvvələrin, gənc nəslin ortaya çıxması dövrü başlamaqdadır. Bu proses necə baş verdi, ümumiyyətlə, axı bu ədəbiyyat nədir, dünyaya bədii söz sənəti hardan gəlib hara gedir, ədəbi proses nə vəd edir, Elçinin öz yaradıcılığı bu böyük xor kapellasında necə görünür… kimi onlarca suala cavab axtarılan «Ədəbiyyat söhbəti» adlı müsahibə inama inamın təsdiq faktıdır.

Yaşarın Elçinlə bu böyük ədəbiyyat söhbəti (bu yerdə «böyük» epiteti həm müsahibənin həcminə, həm də onun daşıdığı məzmun yükünə aiddir) əvvəlcə «525-ci qəzet»in, sonra «Azərbaycan» jurnalının səhifələrində dərc

olundu və dərhal sonra ayrıca kitab halında nəşr edildi.

Müsahibəni xarakterinə və mahiyyətinə görə həm informasiya, həm də analitik janrlar sırasına daxil edirlər. Məşhur rus nəzəriyyəçisi V.V.Voroşilov müsahibəni yalnız informasiya janrları sırasına daxil edir: «İnformasiya janrları sırasına xəbərlər, qeydlər (заметки), müsahibə, söhbət, replika, şərh, reportaj, hesabat daxildir» [9, 65]. Professor C.Məmmədli isə göstərir ki, «bəzən qəzet səhifəsində bir, yaxud iki mühüm sual və cavabı da müsahibə adlandıranlar olur. Lakin belə halda həmin janr informasiya xarakteri daşıyır və onu klassik müsahibə janrı ilə (analitik müsahibə nəzərdə tutulur – G.M.) qarışıq salmaq olmaz» [4, 331].

Müəllif fikrini bir az da geniş izah etmək üçün yazır: «Əgər jurnalist material toplayarkən, bir hadisəylə bağlı yalnız oxucuya informasiya vermək üçün kimdənsə bu barədə məlumat alırsa, heç bir şərhsiz, izahsız onu təqdim edirsə, belə məqamda xəbər–müsahibə janrı ortaya çıxır. Bu janrdakı cavablarda da aksent kim, nə, harda suallarına yönəlir» [4, 331].

Göründüyü kimi, C.Məmmədli geniş, hərtərəfli, hər hansı bir problemi xüsusi analiz edən, klassik mənada başadüşülən müsahibəni xəbər – müsahibə ilə qarışdırmamağı lazım bilir. Və göstərir ki, «əlbəttə, müsahibə informasiya janrları sırasındadır, …informasiya məqsədilə alınan müsahibələrdəki faktın sonradan digər kontekstdə maraqlı təhlil predmeti olacağı da istisna deyil. Əgər informasiya müsahibəsi xəbərdə olduğu kimi kim, nə, harda – suallarını cavablandırırsa, analitik müsahibə niyə, necə, bu nədir – suallarına cavabı nəzərdə tutur. Bu müsahibəni aparan jurnalist sualları xüsusi istiqamətə – təhlil istiqamətinə yönəldir» [4, 353].

Bizcə, müsahibəni xəbər və analitik formatlara bölən C.Məmmədlinin fikri daha məntiqi görünür. V.Voroşilovun müsahibəni yalnız xəbər formatında təqdim etməsi son vaxtlar çox böyükhəcmli və bu həcmə görə də çox ciddi problemlərə hərtərəfli təhlillərlə yanaşan yeni müsahibələr barədə düşünməyə əsas verir. Yuxarıda haqqında geniş bəhs etdiyimiz «Elçinlə ədəbiyyat söhbəti» kimi kitab formatında 6,25 çap vərəqi həcmində» [1] və «525-ci qəzet»in, qeyd etdiyimiz kimi, 10 nömrəsində, həm də hər dəfə iki səhifə formatında meydana çıxmış bir müsahibəni necə informasiya janrına aid etməmək olar?

Yaxud. Yenə də həmin «525-ci qəzet»in 2012-ci ilin dekabrından 2013-cü il martın sonunadək həftədə dörd nömrədə davam edən «Azərbaycanda dini və etnik tolerantlıq: fəlsəfi – psixoloji akpektdən baxış» sərlövhəli müsahibəni hansı formata aid etmək olar? Yaxud, yenə həmin qəzetin 2011-2013-cü illərdə şənbə buraxılışlarında Azərbaycan Respublikasının sabiq Təhsil naziri M.Mərdanovla müsahibəni də buna illüstrativ fakt kimi misal gətirə bilərik. Qəzetin Misir Mərdanovla apardığı çoxsaylı və irihəcmli müsahibələrindən biri belə sərlövhə ilə təqdim olunmuşdur: “...Mətbuat oxucunu işıq gələn tərəfə aparmalıdır”. Burada söhbət müasir medianı təhsil nazirinin təfsirində göstərməkdən gedir. Jurnalistin çoxsaylı sualları sırasında, M.Mərdanovun mətbuatın indiki durumuna, qeyri-obyektiv tənqidə, hansı qəzetin daha çox oxunması, Internet

saytlarının mövzu dünyası, jurnalistin qeyri-peşəkarlığının fəsadları, jurnalistin müstəqil şərhləri, mətbuatdakı çatışmazlıqlar və s. onlarca problemə münasibəti öz əksini tapmışdır [6].

Yaxud, qəzetin gənc yazıçı Sahilə İbrahimova ilə "Yazıçılığın şöhrəti samballı, urvatlı şöhrətdi" [7] sərlövhəli müsahibəsi də sualların qoyuluşu, cavabların təhlili xarakteri ilə diqqəti cəlb edir. Burada diqqəti cəlb edən əsas cəhət jurnalistin səriştəli suallarıdır.

Əlbəttə, «525-ci qəzet»in bu formatda müsahibələrini xüsusi hal kimi də qəbul etmək olar. Lakin fakt ortadadır. «525-ci qəzet» müsahibəyə Qərbdə və Rusiyada xeyli vaxtdan bəri formalaşmış bir format əlavə etmişdir və bu format oxucu tərəfindən maraqla qarşılanmaqdadır. Bu marağı sübut etmək üçün diqqəti AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Səlahəddin Xəlilovla qəzetin müxbiri Sevinc Mürvətqızının yuxarıda adını çəkdiyimiz iri həcmli müsahibəsinə çəkmək istərdik.

«525-ci qəzet»in 16, 19, 20, 21, 26, 27 fevral və 2, 5, 7, 12 mart 2013-cü il tarixli nömrələrində dərc olunan bu müsahibə Azərbaycanın siyasi, geosiyasi, ictimai, dövlət, xalq məsələləri ətrafında geniş sualları cavablandırır. «Məlum olduğu kimi, dünyada mövcud olan idarəçilik sistemlərinin yüz illərlə davam edən tarixi, əhali arasında normaya çevrilmiş özünəməxsus dəyərləri, hər bir xalqın adət-ənənələrinə söykənən xüsusiyyətləri mövcuddur» [2, 483-484]. Bu sistemdə ölkədə mövcud olan dinlərə, habelə əlaqəli regionlarda sitayiş edilən dinlərə tolerant münasibət xalqın mədəni səviyyəsindən xəbər verir.

Professor S.Xəlilov bu geniş müsahibədə bir filosof kimi Azərbaycan cəmiyyətində dini və etnik tolerantlığın fəlsəfi-psixoloji aspektlərini açır. Məsələn, jurnalistin «Xalqların mentalitetindən söz düşmüşkən, milli xüsusiyyətlərin hansı ümumi və fərqli cəhətləri var?» kimi fundamental bir sualına müsahibin cavabı: «Dinin sosial təşkili, dini institutların yaradılması ancaq dini ideyaların təbliğ olunması, dindarlara öz dini biliklərini zənginləşdirmək, Allaha müraciət etmək, dua etmək, mənəviyyatını kamilləşdirmək və sair üçün şərait yaradılmasına xidmət edir. Həmin sosial institutların, dini məbədlərin və digər fəaliyyətini təmin etmək üçün peşəkar din xadimləri, ruhanilər hazırlanıb yetişdirilir, bu məqsədlə müxtəlif səviyyəli dini məktəblər fəaliyyət göstərir. Bu da nəzərə alınmalıdır ki, indi gənclərin bir sıra xarici ölkələrə dini təhsil üçün göndərilməsi onların müəyyən təriqətlərə cəlb edilməsi ilə nəticələnə bilər. Ona görə də xarici ölkələrdə dini təhsil sahəsində yaxşı ölçülüb-biçilmiş siyasət həyata keçirilməlidir. Daha yaxşı olar ki, ölkəmizdə ali dini təhsilin səviyyəsi artırılsın və kadrlar daxili resurslar hesabına hazırlansın. Əlbəttə, beynəlxalq əməkdaşlıq da önəmlidir, amma təkrar edirəm ki, burada tolerantlıq prinsipinə əməl edilib-edilməməsi nəzərə alınmalıdır. Dini-sosial qurumlar cəmiyyətin mikrostrukturunda miqyasca kiçik yer tutsalar da, müəyyən müstəqilliyə, muxtariyyətə malikdirlər. Konstitusiyada da təsbit olunduğu kimi, din ilə dövlət bir-birindən ayrıdır. Lakin bu ayrılıq ancaq hüquq müstəvisində mütləq xarakter daşıyır. Siyasət və ideologiya müstəvisində bu ayrılığın mütləqləşdirilməsi mümkün

deyil. Siyasətlə məşğul olan, ideoloji konsepsiyalar hazırlayan adamlar, millət vəkilləri və s. bu və ya digər dinə qulluq etməsindən və ya ümumiyyətlə, dinə münasibətindən asılı olaraq müxtəlif mövqelərdə dura bilərlər. Başqa sözlə, din siyasətə müstəqil sosial subyekt kimi deyil, siyasətin formalaşmasında iştirak edən şəxslərin dünyagörüşü vasitəsilə təsir göstərə bilər» [8].

Beləliklə, bir müsahibədə jurnalistin müsahib qarşısında qoyduğu onlarca sualdan birinin cavabına diqqət etdik və bu cavabın necə hərtərəfli, necə elmi və həm də necə publisistik, informativ ruhda olduğunu, gördük. Qəzetin son beş illik fəaliyyətində bu tipli fundamental təhlili müsahibə təcrübəsi tamamilə formalaşmışdır.

Misal gətirdiyimiz illüstrativ faktlar sübut edir ki, Azərbaycan media mühitində müsahibə nəinki bir janr kimi çox işlək və aktivdir, həm də onun tamamilə yeni formatları meydana gəlməkdədir.

### ƏDƏBİYYAT


1. Elçinlə ədəbiyyat söhbəti. Yaşar Qarayevin xalq yazıçısı Elçinlə müsahibəsi. Bakı: Təhsil, 2012, 200 s.
2. Həsənov Ə. Geosiyasət. Bakı: Aypara-3, 2010, 604 s.
3. «Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikasının Qanunu. Azərbaycan qəz., 1899, 8 dekabr.
4. Məmmədli C. Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi. Bakı: Təhsil, 2013, 656 s.
5. Məmmədli C. "Elçinlə ədəbiyyat söhbəti" ətrafında söhbət . "525-ci qəzet", 2012, 27 aprel
6. "525-ci qəzet", 2012, 28 aprel
7. "525-ci qəzet", 2013, 23 fevral
8. "525-ci qəzet", 2013, 2 mart
9. Ворошилов В.В. Журналистика. М.: «Михайлова А.А.», 2000, 336 с.
10. Тертычный А.А. Методы профессиональной деятельности журналиста. М.: «Вк», 2011, 560 с.
11. Interpersonal Skills at work. John Hayes. Second Edition, p. 99.


## ИНТЕРВЬЮ И ЕЕ НОВЫЕ ФОРМАТЫ В СМИ АЗЕРБАЙДЖАНА


**Г.С.МАХМУДОВА**


### РЕЗЮМЕ


В представленной статье рассматриваются причины частого употребления жанра интервью в системе масс-медии современного Азербайджана, в частности в прессе. Особое внимание уделяется тому факту, что в современной прессе образуются новые форматы интервью. В деятельности некоторыхгазет, особенно как "525-ci qəzet", "Kaspi", "Ekspress" и т.д. в последние годы дается место новым форматам и типам интервью. В статье были проанализированы широкоформатные интервью Эльчина Эфендиева, Мисира Марданова, Салахаддина Халилова и других, которые были опубликованы в нескольких номерах газеты регулярно и непрерывно. В фоне приведенных иллюстративных материалов проводятся анализы характерных черт интервью – как тематики, уровня

профессионализма, способов выражения языка. В статье основное внимание уделяется не к самому интервью, а к профессионализму журналиста, который берет интервью.

**Ключевые слова:** средства массовой информации, интервью, наблюдение, жанр, новый формат

## INTERVIEW AND NEW FORMATS OF INTERVIEW IN AZERBAIJANI MEDIA

**G.S.MAHMUDOVA**

**SUMMARY**

The present article observes the reasons for the frequent use of the genre of interview in the mass media of modern Azerbaijan, particularly in the press. Particular attention is paid to the fact that there are new formats of interview in today's media. In recent years some newspapers, especially "525-ci qəzet", "Kaspi", "Ekspress", etc. have presented interviews in new formats. The article analyzes Elchin Efendiyev's, Misir Mardanov's, Salahaddin Khalilov's and others' large-format interviews in newspapers. On the basis of the above illustrated materials, the author analyses such characteristics of the interview as the subject, the level of professionalism and ways of expressing language. The article focuses not on the interview, but on the journalist-interviewer's professionalism.

**Key words:** The media, interview, observation, genre, new format